# “Bizim həyət” layihəsi çərçivəsində daha bir həyət abadlaşdırılıb



Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən “Bizim həyət” layihəsi çərçivəsində növbəti abadlaşdırılmış həyət sakinlərin istifadəsinə verilib.

AZƏRTAC xəbər verir ki, yenilənmiş həyət Bakı şəhəri, Nəsimi rayonu, Hüseyn Seyidzadə küçəsi, 1 və 2a ünvanında yerləşən təxminən 1600 nəfər sakinin yaşadığı binaları əhatə edir.

“Bizim həyət” layihəsinin əsas məqsədi Bakı həyətlərinin ekoloji cəhətdən təmiz və abad edilməsi, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır. Abadlaşdırılan növbəti həyətdə əlil və sağlamlıq imkanları məhdud olan insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarını səmərəli keçirmələri və onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılması məqsədilə müxtəlif idman qurğuları, futbol və basketbol meydançaları və uşaq meydançaları salınıb. Yeni həyətin ərazisində 5 söhbətgah inşa edilib, çoxsaylı oturacaqlar, tullantılar üçün qutular quraşdırılıb.

Sakinlərin istək və maraqları nəzərə alınaraq yeni liftlər, işıqlandırma dirəkləri quraşdırılıb, binaların fasadları, dam örtükləri və giriş hissələri təmir olunub. Həyətin ərazisindəki mövcud yaşıllıqlara əlavə olaraq 80 ağac və kol, habelə 1000 kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb.

Məhəllə sakinləri Rafiq Hüseynov və Arifə Əliyeva bildiriblər ki, əvvəllər həyətdə oturacaqlar olmayıb. İndi söhbətgahlar quraşdırılıb, uşaqlar üçün şərait yaradılıb. Sakinlərin sözlərinə görə, əvvəllər işıqlandırma olmadığından qaranlıqdan həyəti görmək mümkün deyildi. Bildirilib ki, işıq dirəkləri quraşdırılıb, bina rənglənib, bloklar və pilləkənlər təmir olunub. Sakinlər yaradılan şəraitə görə minnətdarlıqlarını ifadə edib, bu abadlığın qorunub saxlanılmasına çalışacaqlarını diqqətə çatdırıblar.



Qeyd edək ki, həmin layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar paytaxtımızın abadlaşdırılmaya ehtiyacı olan həyətləri haqqında məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.

Azərbaycan.- 2021.-22 oktyabr.- S.10.